Müəllif: Şeyx Muhəmməd ibn Ğalib əl-Umari

Hazırladı: Ramin Mütəllim

# İSLAM DİNİNDƏ QADININ ŞƏRƏFLİ MƏQAMI

@RaminMutellim

# İslam dinində qadının şərəfli məqamı

Müəllif:
Şeyx Muhammməd ibn Ğalib əl-Umari

Hazırladı:
Ramin Mütəllim

## Mündəricat

Giriş .......... 4
İslama qədərki cahilliyə dövründə qadının vəziyyəti və hüquqları .......... 5
İslam dinində qadın haqları .......... 12
Qız uşağının doğulmamışdan əvvəlki hüquqları .......... 16
İslam dini qız uşağına hələ körpəlik vaxtından qayğı göstərir. .......... 19
Həyatın növbəti mərhələsi qız uşağının böyüyüb yetkinlik yaşına çatdığı, artıq ana olmağa hazır olduğu dövrdür. .......... 27
Ailə həyatı qurduqdan sonra İslamın qadına göstərdiyi qayğı .......... 28
Ana olduqdan sonra İslam dininin qadını şərəfləndirməsi .......... 33
İslam dininin qadını bacı olaraq şərəfləndirməsi .......... 37
İslam dinində nənələrə göstərilən qayğı .......... 41
Qadının ölümdən sonrakı haqları .......... 43
Qadınların miras məsələləri ilə bağlı şübhələrə cavab .. 46
Qadınların şahidliyi ilə bağlı şübhələrə cavab .......... 50

# Giriş

Aləmlərin Rəbbi olan Allaha həmd olsun. Elə bir həmd ki, Rəbbimiz onu sevir və ondan razıdır. Şəhadət edirəm ki, Allahdan başqa ibadətə layiq heç bir haqq məbud yoxdur. Onun gözəl adları və uca sifətləri var. Eyni zamanda şəhadət edirəm ki, Muhamməd Onun qulu və elçisi, yaratdıqları arasında ən pak və sevimli quludur. Allahım, qulun və elçin olan bizim sevimli peyğəmbərimizə, onun əhlinə və səhabələrinə salavat və salam olsun.

Mövzumuz İslamda qadınların şərəfli mövqeyi və İslam dininin onlara göstərdiyi qayğıdır.

## İslama qədərki cahilliyə dövründə qadının vəziyyəti və hüquqları

Belə bir deyim var: «Hər şeyin həqiqəti müqayisədə ortaya çıxır». Buna görə də İslamın qadına verdiyi dəyərdən danışmazdan əvvəl qadınların İslamdan öncəki cahillik dövründə hansı çətinliklərdən keçdiyini qismən də olsa, öyrənmək məqsədəuyğundur.

Həqiqətən də islama qədərki cahilliyə dövründə qadına sadəcə istifadə edilən digər əşyalar kimi münasibət bəslənirdi və onun heç bir hüququ yox idi. Qadına heç bir əhəmiyyət verilmirdi. O, qanadı qırıq bir quş kimi idi. Heç bir söz haqqı yox idi və digər bütün hüquqlardan da məhrum idi. Onu əhatə edən mühit zülm, ədalətsizlik və düşmənçiliklə dolu idi. Həmin dövrdə qadının miras hüququ da yox idi. Bundan əlavə əri onu boşamaq istədikdə onun tərəfindən göstərilən təqib və təzyiqdən qadını heç kəs qoruya bilmirdi. Ər istədiyi qədər onunla boşanıb

təkrar evlənə bilərdi[1]. Ər vəfat etdikdə isə qadın onun başqa qadından olan oğluna miras qalırdı. Yəni qadın digər əşyalar kimi başqasına miras qalırdı. Çünki cahiliyyə dövrünün insanlarına görə qadın mülkiyyətin bir hissəsi sayılır və əşya kimi istifadə olunurdu.

İbn Abbas (Allah ondan və atasından razı olsun) demişdir: «*Oğulun vəfat etmiş atasının arvadı üzərində daha çox haqqı var idi. İstəsə, onu yanında saxlaya bilər və yalnız qadın özü-özünü satın aldıqda azad edərdi. Əgər qadın vəfat etsəydi, onun bütün malına sahib olardı*»[2].

Ata ibn Əbi Rabah demişdir: «*Cahillik dövründə qadının əri vəfat etdikdə ərinin ailəsi onu oğullarından biri böyüyənə qədər saxlayırdı. Başqa sözlə, qadını oğlu üçün*

[1] «İddə» (boşanmadan sonrakı gözləmə) müddətindən sonra onu təkrar geri alır və beləcə qadını asılı vəziyyətdə saxlayırdı. [Tərc. Qeyd]

[2] Təfsir ət–Təbəri, 1/647

*bir mülk kimi böyüyənə qədər qoruyurdular. İslam gəldikdən sonra bu məsələyə dair aşağıdakı ayə nazil oldu:*

﴿لَا يَحِلُّ لَكُمْ أَن تَرِثُوا النِّسَاءَ كَرْهًا﴾

**«İradələrinin əksinə qadınları miras edinmə-niz sizə halal deyildir»** (Quran 4:19)»[1].

İbn Cureyc və Mücahid demişlər: *«Oğul vəfat etmiş atasının arvadı üzərində daha çox hüquqa malik idi. Əgər istəsə, onunla (əgər bu qadın onun anası deyildisə) evlənə bilərdi və ya onu öz qardaşı və ya qardaşı oğluna ərə verə bilərdi. »*[2]

Əri vəfat edən qadın uzun müddət yas saxlamalı və mümkün qədər baxımsız qalmalı idi: ona suya toxunmaq və saçını daramaq qadağan olunurdu.

---

[1] Təfsir ət–Tabəri, 8/106

[2] Təfsir ət-Tabəri, 8/106

Kölə qadının ağası onu şəxsi mənfəəti üçün zina etməyə məcbur edə bilərdi. Bununla əlaqədar olaraq Uca Allah aşağıdakı ayəni nazil etmişdir:

﴿وَلَا تُكْرِهُوا فَتَيَاتِكُمْ عَلَى الْبِغَاءِ إِنْ أَرَدْنَ تَحَصُّنًا لِّتَبْتَغُوا عَرَضَ الْحَيَاةِ الدُّنْيَا﴾

**«Fani dünya malı əldə etmək məqsədilə ismətli olmaq istəyən kənizlərinizi zinakarlığa məcbur etməyin»** (Quran, 24:33).

Ərəblər qız uşaqlarına nifrət edirdilər. Məlum olduğu kimi onların arasında öz qızlarını diri-diri torpağa basdıranlar da var idi. Bu hadisə ilə bağlı Uca Allah aşağıdakı ayəni nazil etmişdir:

﴿وَإِذَا ٱلْمَوْءُۥدَةُ سُئِلَتْ ۝٨ بِأَىِّ ذَنۢبٍ قُتِلَتْ ۝٩﴾

**«Həmin gün diri-diri basdırılan qız uşağından hansı günahına görə öldürüldüyü soruşulacaq»** (Quran, 81:8-9).

Cahilliyə dövründə qız uşağının doğulmasını insanların necə qarşıladığı barədə Uca Allah buyurmuşdur:

﴿وَإِذَا بُشِّرَ أَحَدُهُم بِٱلۡأُنثَىٰ ظَلَّ وَجۡهُهُۥ مُسۡوَدّٗا وَهُوَ كَظِيمٞ ٥٨ يَتَوَٰرَىٰ مِنَ ٱلۡقَوۡمِ مِن سُوٓءِ مَا بُشِّرَ بِهِۦٓۚ أَيُمۡسِكُهُۥ عَلَىٰ هُونٍ أَمۡ يَدُسُّهُۥ فِي ٱلتُّرَابِ﴾

**«Onlardan birinə qız uşağının doğulduğu xəbəri veriləndə üzü qaralır və o, qəzəbini çətinliklə boğur. Verilən pis xəbərə görə insanlardan gizlənir. Körpəni rüsvayçılıqla saxlasın yoxsa onu diri-diri basdırsın?»** (Quran, 16:58-59).

Beləliklə, övladlar arasında qız uşağının olması ata üçün rüsvayçılıq sayılırdı və o, bunu hər vəchlə insanlardan gizlətməyə çalışırdı.

**Yaxın keçmişdə qərb aləmində qadınların vəziyyəti islama qədərki cahilliyə dövründə ərəblərdə olan vəziyyətdən heç də yaxşı deyildi.**

Qadın ağla gələn hər cür haqsızlığa və zülmə məruz qalırdı, hüquqları daima pozulurdu. O, çətin şəraitdə yaşayır, yemək-içməklə təmin olunmaq imkanından belə məhrum edilirdi. Bir çox belə ölkələrdə qadınlar kənd yerlərini tərk edərək dolanışıq üçün şəhərlərə üz tutur, zavodlarda və digər müəssisələrdə kişilərlə birlikdə çalışırdılar. Bu, qadınlarla kişilər arasında zinaya aparan münasibətlərin yaranmasına və nəticədə nikahdan kənar uşaqların dünyaya gəlməsinə səbəb olurdu. Əxlaqsızlıq nəticəsində dünyaya gələn uşaqların sayı o qədər artdı ki, küçələr və uşaq evləri onlarla dolub daşırdı. Bütün bunlar əsasən qadınların sıxışdırılması, maddiyyata bağlılıq və mənəviyyətin zəifləməsinə görə baş verirdi. Bu iki amil həmişə cəmiyyətlərin və nəsillərin həlakına gətirib çıxaran əsas amillər olmuşdur.

İslam düşmənləri İslamın qadınları hüquqlarından məhrum etdiyini və guya onlara mərhəmət göstərməyən kişilərdən asılı olduğunu iddia edirdilər. Onlar Allahın Öz şəriətində qadını

alçaltdığı və ləyaqətsiz bir varlıq kimi davrandığı fikrini yayırdılar. Bu cür yalan təbliğatın nəticəsi olaraq müsəlman qadının qəlbinə bir çox şübhələr atılmışdır. Bu şübhələrin təsiri ilə o, dininə qarşı mənfi münasibət bəsləməyə başlamış və Peyğəmbərin ﷺ sünnəsinə zidd davranmağa yönəlmişdir.

## İslam dinində qadın haqları

Həqiqət isə budur ki, Allah Peyğəmbəri ﷺ göndərməklə ədaləti bərqərar etdi və zülmü aradan qaldırdı. Nur gəldi, zülmət isə yox oldu. Qadına hörmət və izzət verildi, ona qarşı nalayiq və pis münasibət isə aradan qalxdı.

İslam dini qadın hüquqlarını qoruyan çoxsaylı şəriət qaydaları müəyyən etməklə onun məqamını ucaltdı və ona ən gözəl şəkildə qayğı göstərdi. İslam qadına layiq olduğu yeri verdi. Bu baxımdan qadına bu qədər dəyər verən, onun şərəfini tanıyan və ona diqqətlə yanaşan ikinci bir din və ideologiya mövcud deyil. Bunun səbəbi həm sadədir, həm də əzəmətli: çünki onu yaradan və ona surət verən Uca Allah qadın üçün nəyin xeyirli və faydalı olduğunu daha yaxşı bilir.

Təsadüfi deyil ki, Quran surələrindən biri «ən-Nisa» — yəni «Qadınlar» adlanır. Bu surənin bir çox hökmləri məhz qadınlarla bağlıdır. Bundan əlavə,

kişilərə yönəldilmiş istənilən hökm eyni şəkildə qadınlara da aiddir — yalnız qadınlara məxsus hökmləri ehtiva edən ayələr istisnadır. Quranda 90 ayədə Uca Allah «**Ey iman edənlər…**» xitabı ilə möminlərə müraciət edir və bu müraciət qadınları da əhatə edir. Yalnız kişilərə və ya yalnız qadınlara xitab edilən ayələr isə azdır.

İslam dini qadınlara qayğı göstərir və onlara xüsusi diqqət yetirir. Təsadüfi deyil ki, Uca Allah Öz Müqəddəs Kitabında qadınlarla bağlı boşanma, aybaşı, əhdlər, xərclər, himayə, evlilik, mülkiyyət və digər bir çox məsələləri ətraflı şəkildə izah etmişdir. Bütün bunlar İslamın qadınlara və onların hüquqlarına verdiyi dəyərin və qayğının bariz təzahürüdür.

İslamda qadının kişi kimi hüquq və öhdəlikləri vardır. Peyğəmbər ﷺ buyurmuşdur: *«**Həqiqətən, qadınlar kişilər kimidirlər. Onların hüquqları var,***

***kişilərin də hüquqları var. Qadınların da kişilər kimi öhdəlikləri vardır»***[1].

Uca Allah Quranda bizə bildirmişdir ki, O bizi qadın və kişi olaraq yaratmışdır və xoşbəxtlik ilə əbədi səadət insanın qadın ya da kişi olmasında deyil, onun təqvasındadır. Beləliklə, Allah qadını kişi ilə eyni mərtəbəyə qoyaraq onu ucaltmış və şərəfləndirmişdir. Uca Allah buyurur:

﴿يَا أَيُّهَا النَّاسُ إِنَّا خَلَقْنَاكُم مِّن ذَكَرٍ وَأُنثَىٰ وَجَعَلْنَاكُمْ شُعُوبًا وَقَبَائِلَ لِتَعَارَفُوا ۚ إِنَّ أَكْرَمَكُمْ عِندَ اللَّهِ أَتْقَاكُمْ﴾

**«Ey insanlar! Həqiqətən, Biz sizi kişi və qadından yaratdıq və bir-birinizi tanıyasınız deyə sizi xalqlar və qəbilələr etdik, Allah qatında sizin ən dəyərliniz təqvası ən çox olanınızdır»** (Quran 49:13).

[1] Müslim, 313

Məşhur bir hədisdə kişilərin qadınlara qarşı öhdəlikləri və ailə münasibətləri ilə bağlı Peyğəmbər ﷺ buyurmuşdur: «***Sizin ən xeyirliniz ailəsilə ən gözəl şəkildə rəftar edəninizdir. Mən isə ailəmlə sizin hamınızdan daha gözəl rəftar edirəm***»[1].

«***Sizin ən xeyirliniz ailəsilə ən gözəl şəkildə rəftar edəninizdir***» sözləri həyat yoldaşı və övladları ilə qarşılıqlı münasibətləri, onlara qarşı xeyirxah davranışı, qayğıkeşliyi, təbəssümü, nəzakəti, birgə vaxt keçirməyi və onların ehtiyaclarının qarşılanmasını əhatə edir. Bu o deməkdir ki, əgər bir kişinin malı, mülkü və gözəl əxlaqı varsa, onun ailəsi bütün bunlara başqalarından daha çox layiqdir.

---

[1] İbn Hibban, 3018

## Qız uşağının doğulmamışdan əvvəlki hüquqları

İslam dini qadını həyatının bütün mərhələlərində ucaltmış və hər bir vəziyyətdə onun qayğısına qalmışdır. Belə ki, İslam qadının hüquqlarını həm dünyaya gəlməmişdən əvvəl, həm də doğulduqdan dərhal sonra müəyyən etmiş, onu körpə ikən belə şərəfləndirmişdir.

Qız uşağının doğulmamışdan əvvəlki hüquqlarına onu dünyaya gətirəcək qadının saleh olması və bu cəhətdən atanın həyat yoldaşı olaraq seçəcəyi qadının təqvalı olma xüsusiyyətinə üstünlük verməsi daxildir. Bəs bu, hələ dünyaya gəlməmiş bir qız uşağının haqlarına necə aid ola bilər? Uşağın gələcək tərbiyəsi birbaşa onun anasının necə bir insan olmasından asılıdır. Çünki uşağın tərbiyəsi ilə əsasən ana məşğul olur və bu qadını ata seçir. Deməli, övladlar üçün saleh ana seçimi onlara qarşı yaxşılıq sayılır.

Bu səbəbdən Peyğəmbərimiz ﷺ bildirmişdir ki, qadınla onun dörd xüsusiyyətinə görə nikah bağlanır. Peyğəmbərimiz bu hədisi bu sözlərlə tamamlayır: *«**Sən saleh olanı seç — xeyirə müvəffəq olarsan**»*. Yəni dinin hökmlərini yerinə yetirən qadını seç ki, o sənin, uşaqlarının, evinin və sən olmadığın zaman malının, mülkünün qayğısına qalsın.

Beləliklə, qız uşağının dünyaya gəlmədən öncəki hüquqlarına onun üçün saleh bir ananın seçilməsi də daxildir.

Uşağın — istər qız, istər oğlan olsun — doğulmazdan əvvəlki hüquqlarından biri valideynlərin cinsi yaxınlıqdan əvvəl şeytandan Allaha sığınaraq dua etməsidir.

Peyğəmbərimiz ﷺ buyurmuşdur: ***«Sizdən biri həyat yoldaşı ilə yaxınlıq etmək istədikdə belə desin:***

***[Bismilləh, Allahummə cənnibnə-ş-şeytanə va cənnibi-ş-şeytanə mə razəqtənə].***

***«Allahın adı ilə. Allahım! Bizi və bizə verəcəyin övladı şeytandan qoru». — əgər bu yaxınlıqdan övlad dünyaya gələrsə, şeytan ona heç bir zərər verə bilməz»***[1].

Bu duanı həyat yoldaşı ilə yaxınlıqdan əvvəl etmək övladın cinsindən asılı olmayaraq kişinin gələcək övladları qarşısındakı borcudur.

---

[1] əl-Buxari, 141

## İslam dini qız uşağına hələ körpəlik vaxtından qayğı göstərir.

Hər bir müsəlman kəs qız övladı olacağını eşitdikdə sevinir, çünki peyğəmbər ﷺ öz gəlişi ilə İslamdan əvvəlki cahillik dövründə qız uşaqlarına qarşı hökm sürən stereotipləri aradan qaldırmışdır. O, belə buyurmuşdur: «***Qızlara nifrət etməyin, çünki onlar həqiqətən gözəl və mehribandırlar***»[1].

Qız uşağının doğulduqdan sonrakı hüquqlarına atasının ona gözəl bir ad qoyması da daxildir — elə bir ad ki, onu uşaqlığında, qocalığında və Qiyamət günü həmin adla çağıracaqlar.

Yaxşı ad seçiminin əhəmiyyətini Mavərdi (Allah ona rəhmət etsin) belə izah etmişdir: «*Adın gözəl mənası olmalı və uşağın özünə, yaşadığı yerə, millətinə və soyuna uyğun olmalıdır*».

---

[1] Əhməd, 17647

Bu o deməkdir ki, insan övladı üçün mənası zəif, təhrif olunmuş, pis və ya uyğunsuz olan nadir adları seçməməlidir. Uşağa münasib və ləyaqətli ad qoymaq valideynin üzərinə düşən bir məsuliyyətdir. Qeyri-adi və ya nadir bir ad seçməyi hədəfləmək doğru deyil. Uşağa elə bir ad qoymaq lazımdır ki, insanlar bu adı eşitdikdə təəccüblənməsin və bu ad anlaşılmaz olmasın. Əksinə, elə bir ad seçilməlidir ki, uşağın yaşadığı cəmiyyət bu adı tanısın və qəbul etsin.

Bu niyə vacibdir? Çünki qəribə və nadir ad istehza və lağlağıya səbəb ola bilər. Əgər qız uşağının adı yaşadığı yer üçün qeyri-adi və anlaşılmaz səslənirsə, insanlar arasında həmin adla çağırıldıqda o, utanaraq özünü narahat hiss edə bilər.

Bundan əlavə, uşağın körpəlik dövründəki hüquqlarına doğulduqdan dərhal sonra bir xurmanı

onun üst damağına sürtmək daxildir[1]. Bu əməl sünnə ilə sabitdir.

Ummu Suleym (Allah ondan razı olsun) rəvayət edir ki: *«Mən Abdullaha hamilə idim və bir gecə onu dünyaya gətirdim. Uşağa özüm təhnik etmədim, çünki istəyirdim ki, bunu Peyğəmbər ﷺ etsin».*

Sonra Ənəs (Ummu Suleymin oğlu) deyir ki: «*Mən səhər tezdən körpəni Peyğəmbərin ﷺ yanına gətirdim. Özümlə bir neçə ədəd əcva (xurma növünün adı) götürmüşdüm. Gəldikdə gördüm ki, Rəsulullah ﷺ dəvələrini yemləyir və ya dağlayır. "Ya Rəsulullah, Ummu Suleym bu gecə doğmuşdur. O, uşağa təhnik etməyib, çünki istəyir ki, bunu sən edəsən" - dedim.*

*Peyğəmbər ﷺ dedi: "**Özünlə bir şey gətirmisənmi?**" Əcva xurması gətirdiyimi söylədim. **O, xurmanı götürüb***

---

[1] Ərəb dilində buna «təhnik» deyilir. [Tərc. Qeyd]

***mübarək ağzında yumşaltdı, sonra tüpürcəyi ilə qarışmış xurma əzməsini körpənin ağzına qoydu»***[1].

Ən səhih və düzgün mövqe ondan ibarətdir ki, təhnik yalnız Peyğəmbərə ﷺ xas olan bir əməl deyildir. Buna görə də ibn Kəsir (Allah ona rəhm etsin) yazır ki, «Həsən əl-Bəsri *(tabiinlərdən [Peyğəmbərin səhabələrindən sonrakı nəsil] olan imamlardan biri)* anadan olanda Ömər ibn Xəttab *(Allah ondan razı olsun)* ona təhnik etmişdir»[2].

Beləcə təhnik də qız uşağının sünnədə varid olan haqlarındandır.

Qızın digər haqqı isə ana südü ilə bəslənməsidir. Uca Allah buyurmuşdur:

﴿وَالْوَالِدَاتُ يُرْضِعْنَ أَوْلَادَهُنَّ حَوْلَيْنِ كَامِلَيْنِ﴾

**«Analar öz uşaqlarını tam iki il əmizdirmə-lidirlər»** (Quran, 2:233).

---

[1] «Müsnəd», Əhməd, 12028

[2] əl-Bidayə və ən-Nihayə, 9/303

Bu həm oğlan, həm də qız uşaqlarının haqqıdır.

Bundan başqa, ona yaxşı qulluq edilməsi də qız uşağının haqlarındandır. Yəni onun yeməsinə, içməsinə, geyiminə və tərbiyəsinə diqqət yetirilməlidir. Bura onun elmi təhsili də daxildir.

Əbu Səid əl-Xudri *(Allah ondan razı olsun)* rəvayət etmişdir ki: ***«Bir dəfə qadınlar Peyğəmbərə ﷺ dedilər:*** *"Kişilər səndən aldıqları elmlə bizi qabaqlayırlar, buna görə bizim üçün də bir gün ayır."* ***Onda Peyğəmbər ﷺ qadınlar üçün xüsusi gün ayıraraq onlara dini öyrətməyə başladı»***[1].

Digər bir hədisdə Peyğəmbər ﷺ buyurmuşdur: ***«Dini öyrənmək hər bir müsəlman üçün vacibdir. Bütün məxluqlar, hətta dənizdəki balinalar belə dini bilikləri öyrənənlər üçün dua edirlər»***[2].

---

[1] Əl-Buxari, 101

[2] İbn Macə, 223

Bu hədis qızlara da aiddir. Buna görə də valideynlər qızlarına dini bilikləri öyrətməlidirlər ki, onlar namaz, oruc və Allahın əmr etdiyi digər əməlləri düzgün yerinə yetirsinlər.

Qızların digər bir haqqı isə qardaşlarına göstərilən münasibətin eynilə onlara da göstərilməsi və aralarında heç bir fərq qoyulmamasıdır. Necə ki, Rəsulullah ﷺ buyurmuşdur: ***«Allahdan qorxun və bütün uşaqlarınızla eyni dərəcədə ədalətli olun»***[1]. Oğlunu öpürsənsə, qızını da öp. Oğlunla oturursansa, qızınla da otur. Oğluna hədiyyə edirsənsə, o zaman qızına da oxşarını hədiyyə et.

Burda bir məsələyə diqqət çəkmək lazımdır. Xoş münasibət təkcə yedizdirib içizdirmək, geyindirmək, evlə təmin etmək və s. ibarət deyil. Xoş münasibət eyni zamanda birgə vaxt keçirməkdir, xüsusilə də qız uşaqları ilə. Bu niyə vacibdir? Səbəbi odur ki, atalar adətən oğlan uşaqları ilə vaxt keçirməyə can atır,

---

[1] əl-Buxari, 2587

lakin qızlarına qarşı bu istəyi göstərmirlər. Həqiqətdə isə bu cür davranışın İslam dini ilə heç bir əlaqəsi yoxdur. Peyğəmbərimiz ﷺ bizə belə öyrətməyib. Qız övladları ilə də ünsiyyət qurmağa və birgə vaxt keçirməyə çalışmaq lazımdır. Buna görə də Peyğəmbərimiz ﷺ yuxarıda qeyd etdiyimiz hədisdə buyurmuşdur ki, **«Qızlara nifrət etməyin, çünki, həqiqətən onlar gözəldirlər və mehribandırlar»**[1].

Mehriban sözü o deməkdir ki, onlarla söhbət etmək xoşdur və ataları onlarla oturub vaxt keçirdikdə onlar sevinirlər. Beləliklə qız uşaqları ilə vaxt keçirmək də onların haqlarına aiddir.

İslam qadını uca tutaraq onun böyüklərinə onunla maraqlanmaq, onu tərbiyə etmək və böyümə dövründə ən yaxşı şəkildə yönləndirmək vəzifəsini qoyur. O, dini, hicabı, namazı, Peyğəmbərin ﷺ sünnəsinə riayət etməyi qız uşağına sevdirməlidir ki, qız da öz dini, əxlaqı və tərbiyəsi ilə fəxr etsin. Belə bir

---

[1] Əhməd, 17647

qız öz əxlaqını və iffətini qoruyacaq və zərərli ideologiyaların, pis əxlaqın və çirkin münasibətlərin təsirinə düşməyəcək.

Alimlər buyurublar: «*Ata-ana uşaqları həddi-büluğa çatdıqdan sonra onlar üçün vacib olan dini hökmləri öyrətməyə borcludurlar*». Beləliklə, ailənin böyükləri uşağa düzgün dəstəmaz almağı, namaz qılmağı, oruc tutmağı və digər dini vəzifələri öyrətməlidir. Onlar, həmçinin əxlaqsızlığın və digər günahların haram olduğunu izah etməli və uşağa başa salmalıdır ki, həddi-büluğa çatdıqdan sonra bütün vacib hökmləri yerinə yetirmək onun üzərinə düşən bir məsuliyyətdir. Bundan əlavə, böyüklər uşağa həddi-büluğa çatmanın əlamətlərini də izah etməlidirlər.

Bəzi alimlər hesab edirlər ki, valideynlərin uşağa bu məsələləri öyrətməsi müstəhəbdir (arzuolunandır). Digərləri isə bunun valideynlərin üzərinə düşən bir vəzifə olduğunu hesab edirlər.

## Həyatın növbəti mərhələsi qız uşağının böyüyüb yetkinlik yaşına çatdığı, artıq ana olmağa hazır olduğu dövrdür.

Həyatın bu mərhələsində qız üçün layiqli həyat yoldaşı seçiminə xüsusi diqqət yetirmək vacibdir. Əgər siz belə bir insan tanıyırsınızsa, öz qızınızı ona ərə verməyi şəxsən təklif edə bilərsiniz. Qız üçün onu qoruyacaq, qayğısına qalacaq və onu xoşbəxt edəcək bir həyat yoldaşı tapmaq vacibdir. Peyğəmbər ﷺ həyat yoldaşı seçimində tərbiyəyə və əxlaqa xüsusi önəm verməyi tövsiyə etmişdir. O demişdir: ***«Əgər dinindən və əxlaqından razı olduğunuz biri qapınıza elçi düşsə, ona razılıq verin. Əgər bunu etməsəniz, o zaman yer üzündə fitnə və fəsad yayılacaq»***[1]. Oğlanın mal, mülk və bəlli bir iş sahibi olması kifayət deyildir. Onun dini və gözəl əxlaqı olmalı və bu amillərə həyat yoldaşı seçimində diqqət yetirilməlidir. Qızınızı bu cür insana ərə verməklə ona qarşı yaxşılıq etmiş olursunuz.

[1] Əl-Hakim, «Müstədrək», 2710

## Ailə həyatı qurduqdan sonra İslamın qadına göstərdiyi qayğı

Əgər bir qız Allahın Kitabının hökmlərinə tam şəkildə əməl edərək ərə gedirsə, o zaman ər evində Allahın izni ilə ən gözəl məqama sahib olur. O, öz balaca səltənətində hörmətli və sevimli olaraq yaşayır. Əri onun qayğısına qalır, şərəfini qoruyur və onu hər cür çirkinlikdən uzaq tutaraq ona xoş sözlərlə müraciət edir, hər ehtiyacını qarşılamağa çalışır və onunla ən gözəl şəkildə rəftar edir.

İslam dini qadına həm maddi, həm də mənəvi haqlar vermişdir. Maddi haqlara aşağıdakılar daxildir:

1. Nikah hədiyyəsi (mehr). Uca Allah buyurmuşdur:

﴿وَآتُوا النِّسَاءَ صَدُقَاتِهِنَّ نِحْلَةً﴾

**«Qadınlarınıza mehrlərini ürəkdən verin»** (Quran, 4:4).

2. Yaşayış yeri ilə təmin etmək. Uca Allah buyurmuşdur:

﴿أَسْكِنُوهُنَّ مِنْ حَيْثُ سَكَنتُم﴾

**«Onları özünüz qaldığınız yerdə məskunlaşdırın»** (Quran, 65:6).

3. Maddi təminat. Bir dəfə Peyğəmbərin ﷺ yanına bir qadın gələrək soruşdu ki, onun əri xəsisdir və onu maddi cəhətdən tam təmin etmir, onun icazəsi olmadan pulundan götürə bilərmi? Peyğəmbər ﷺ cavab verdi ki: «**Onun malından özünə və uşaqlarına kifayət edəcək qədər götürə bilərsən**»[1]. Bu hədis dəlildir ki, ər öz həyat yoldaşını maddi cəhətdən təmin etməlidir.

Mənəvi haqlara gəlincə isə onlara aşağıdakılar daxildir:

---

[1] əl-Buxari 5364

1. İslam dini ərə əmr edir ki, həyat yoldaşı ilə ən gözəl şəkildə davransın. Uca Allah buyurmuşdur:

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ﴾

**«Onlarla (həyat yoldaşınızla) gözəl davranın»** (Quran, 4:19).

2. Ər öz həyat yoldaşına əl qaldırmaq və ya təhqir etməklə ona zərər verməməlidir. Həyat yoldaşının nə mənəviyyatına, nə də sağlamlığına zərər verməməlidir. İslam dini ərə əmr edir ki, həyat yoldaşına hörmətlə yanaşsın və ona hərtərəfli qayğı göstərsin. Peyğəmbər ﷺ kişilərə nəsihət edərək buyurmuşdur: «***Qadınlarla mehriban davranın. Həqiqətən qadın qabırğadan yaradılmışdır, qabırğanın ən əyri yeri isə baş hissəsidir. Onu düzəltmək istəsən sındırarsan.***

***Toxunmasan, olduğu kimi qalar. Odur ki, qadınlarla xoş davranın***»[1].

Bu hədisin digər rəvayət olunan ləfzində deyilir: «***Qadınlarınızla gözəl davranın. Həqiqətən onlar sizin əsirinizdir***»[2].

Şübhəsiz ki, ailə həyatında çətinliklər, problemlər və fikir ayrılıqları olur. Lakin İslam dini qadını, hətta əri ondan xoşlanmadıqda belə qoruyur. Bəs əri ondan xoşlanmırsa, din onu necə qoruya bilər? Bəli, din onu qoruyur! Uca Allah buyurmuşdur:

﴿وَعَاشِرُوهُنَّ بِالْمَعْرُوفِ ۚ فَإِن كَرِهْتُمُوهُنَّ فَعَسَىٰ أَن تَكْرَهُوا شَيْئًا
وَيَجْعَلَ اللَّهُ فِيهِ خَيْرًا كَثِيرًا﴾

**«Onlarla (həyat yoldaşınızla) gözəl davranın, əgər siz onlardan xoşlanmasanız, ola bilsin ki,**

1 əl-Buxari, 3331
2 at-Tirmizi, 1163

**xoşlanmadığınız bir şeydə Allah sizin üçün çoxlu xeyir qoymuşdur»** (Quran, 4:19).

Yəni, əgər siz səbr etsəniz və hər hansı bir xüsusiyyətini xoşlamadığınız halda onları boşamasanız, ola bilsin ki, bunda sizin dünya və axirət həyatınız üçün xeyir vardır. Buna görə də Peyğəmbər ﷺ buyurmuşdur ki: **«İman edən kişi həyat yoldaşına nifrət etməməlidir. Əgər onun xoşuna gəlməyən bir xasiyyəti varsa, xoşuna gələn xasiyyətindən razı qalar»**[1].

Yuxarıda biz İslam dininin qadınlara verdiyi hüquqların sadəcə bir qisminə toxunduq.

[1] Muslim, 1469

## Ana olduqdan sonra İslam dininin qadını şərəfləndirməsi

İslam dinində qadının hüquqları və mövqeyi necə də ucadır! Ananın islam dinindəki yeri o qədər şərəflidir ki, Qurani Kərimdə tək Allaha ibadət əmrindən sonra ana ilə yaxşı davranmaq əmri gəlir. Uca Allah buyurmuşdur:

﴿وَقَضَىٰ رَبُّكَ أَلَّا تَعْبُدُوا إِلَّا إِيَّاهُ وَبِالْوَالِدَيْنِ إِحْسَانًا﴾

> **«Rəbbin, Allahdan başqa heç kimə ibadət etməməyi və valideynlərə yaxşılıq etməyi əmr etmişdir»** (Quran, 17:23).

İslam dini anaya qarşı gözəl rəftar, hörmət, təvazökarlıq və başqa bir çox xoş münasibət müəyyən etmişdir. Bir dəfə Peyğəmbərin ﷺ yanına bir kişi gələrək soruşur: *«Ya Rəsulullah, insanlar arasında ən gözəl rəftara kim daha çox layiqdir?»*

Peyğəmbər cavab verir: ***«Anan»***

Kişi yenə soruşur: *«Bəs ondan sonra kim?»*

Peyğəmbər buyurur: **«*Anan*»**

Kişi təkrar soruşur: *«Bəs daha sonra kim?»*

Peyğəmbər yenə cavab verir: **«*Anan*»**

Kişi bir daha soruşur: *«Bəs sonra kim?»*

Peyğəmbər buyurur: **«*Atan*»**

Beləliklə, ataya nisbətən ananın daha çox haqqı vardır və ona qarşı xoş münasibət birinci dərəcəlidir. Anaya xoş münasibət onunla nəzakətli davranmağındır. Nə qədər çalışsan da, onun sənin üçün etdiklərinin əvəzini verə bilməzsən. Lakin o, sənin qayğına uşaq vaxtı qaldığı kimi sən də onun qayğısına qalmağa çalışmalısan. Uca Allah buyurmuşdur:

﴿وَوَصَّيْنَا الْإِنسَانَ بِوَالِدَيْهِ إِحْسَانًا ۖ حَمَلَتْهُ أُمُّهُ كُرْهًا وَوَضَعَتْهُ كُرْهًا﴾

**«Biz insana valideynlərinə gözəl davranmağı əmr etmişik. Ana onu bətnində çətinliklə daşımış və doğmuşdur** » (Quran, 46:15).

Eyni zamanda, Uca Allah valideynlərə xoş münasibəti cihaddan üstün tutmuşdur. Bu xüsusilə anaya göstərilən xoş rəftara aiddir. Abdullah ibn Amr ibn Asdan rəvayət olunur ki; "Bir dəfə Peyğəmbərin ﷺ yanına bir kişi gəldi və cihadda iştirak etmək üçün icazə istədi. Cavab olaraq Peyğəmbər buyurdu:

— ***Valideynlərin sağdırmı?***

Kişi cavab verdi:

—*Bəli.*

Onda Peyğəmbər ﷺ dedi:

**— O zaman get və onlara qulluq et. Bu, sənin cihadın olacaq»**[1].

---

[1] Buxari, 3004

Oxşar hadisədən bəhs edən digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: «***Onun yanında ol, çünki cənnət anaların ayaqlarının altındadır***»[1].

Anaya qayğı göstərmək — ona maddi dəstək vermək və bütün zəruri ehtiyaclarını təmin etməkdən ibarətdir.

[1] ibn Macə, 2781

## İslam dininin qadını bacı olaraq şərəfləndirməsi

Qardaşı qadının söykənə biləcəyi kürək və ailəsindən bir dayaqdır. Bacı onunla fəxr edir və Allahdan sonra kömək üçün ona üz tutur. Qardaş bacısını çətin anda tək qoymaz, onun ehtiyaclarına biganə qalmaz və istəklərini görməzlikdən gəlməz. Onun bacısına göstərdiyi qayğı valideynlərinə olan gözəl münasibətin təzahürüdür, axı onlar eyni bətnin övladlarıdır. O, bacısına mehriban davranır, ona dəyər verir və hər zaman onun yanında olur.

Əbu Səid əl-Xudri (Allah ondan razı olsun) rəvayət edir ki, Peyğəmbər ﷺ demişdir: **«Əgər sizdən birinizin üç qızı və ya üç bacısı olsa və onlarla gözəl rəftar etsə, cənnətə girəcək»**[1].

[1] İbn Hibban, 446

Göründüyü kimi bacılara qarşı mehriban olmaq lazımdır. Peyğəmbərin ﷺ səhabələri öz bacılarına xoş münasibət göstərməkdə ən yaxşı nümunə idilər.

Makil ibn Yasər (Allah ondan razı olsun) belə demişdir: *«Mən bacımı bir kişiyə ərə verdim, sonra o, bacımı boşadı. Tələb olunan müddət (iddə) keçdikdən sonra o, yenidən elçiliyə gəldi. Onda mən ona dedim: Mən bacımı sənə ərə verməklə sənə hörmət etdim və onunla yaxın olmaq üçün imkan yaratdım, sən isə cavabında onu boşadın. İndi sən təkrar olaraq mənim yanıma elçiliyə gəlirsən?! Xeyr, Allaha and olsun ki, bacım bir daha sənə qayıtmayacaq!»*

O, bacısının keçmiş əri ilə niyə belə rəftar etdi? Təbii ki, bacısına olan sevgi, hörmət və qayğı, onu qorumaq istəyi səbəbindən. Bu hadisədən sonra Uca Allah aşağıdakı ayəni nazil etmişdir:

﴿فَلَا تَعۡضُلُوهُنَّ أَن يَنكِحۡنَ أَزۡوَٰجَهُنَّ﴾

**«Onların (qadınların) sabiq ərləri ilə evlənməklərinə mane olmayın»** (Quran, 2:232).

Məlumdur ki, səhabələr (Allah onlardan razı olsun) dini hökmlərə qeyd-şərtsiz tabe olurdular. Bu ayə nazil olduqdan sonra Makil dedi: «*Ya Rəsulullah, mən dərhal bu ayənin hökmü ilə əməl edəcəyəm*», və bacısını keçmiş əri ilə təkrar evləndirdi. Bu hədis səhih əl-Buxaridə qeyd olunmuşdur.

Bacıya qayğıkeş münasibətə dəlil olaraq aşağıdakı hədisi də misal gətirmək olar. Cabir ibn Abdullah (Allah ondan razı olsun) rəvayət etmişdir ki: «*Bir dəfə Peyğəmbərlə ﷺ hərbi səfərdə olarkən o məndən soruşdu:*

— ***Cabir, sən kiminlə evlənmisən? Bakirə ilə yoxsa daha əvvəl evli olmuş qadınla?***

— *Ya Rəsulullah, mən daha əvvəl evli olmuş qadınla evlənmişəm - dedim.*

— ***Bəs niyə bakirə ilə evlənmədin ki, onunla əylənə və vaxtını xoş keçirə biləsən?*** *– deyə Rəsulullah ﷺ soruşdu».*

Cabirin verdiyi cavaba diqqət edin: «*Ya Rəsulullah, mənim atam ölüb (və ya şəhid olub) və arxasında məni və iki balaca bacımı qoyub gedib. Ona görə də cavan bir qızla evlənmədim, çünki o, bacılarıma baxa və onları tərbiyə edə bilməzdi*».

Görün, Cabir öz şəxsi mənafeyini necə bacılarının xeyri naminə qurban vermişdi. Ardınca Cabir deyir: «*Buna görə də mən daha əvvəl evli olmuş, yetişmiş qadınla evləndim ki, o, bacılarıma baxsın və onları tərbiyə etsin*».

Göründüyü kimi İslam dini bacıya böyük haqlar vermişdir. Daha dəqiq desək, onunla qohumluq əlaqələrini saxlamaq – onu ziyarət etmək, ona hörmət göstərmək, ehtiyaclarına diqqət yetirmək, onun və ərinin qayğısına qalmaq, uşaqları ilə xoş davranmaq, vəziyyətləri ilə daim maraqlanmaq və bütün işlərində ona kömək göstərmək vacibdir.

## İslam dinində nənələrə göstərilən qayğı

İslam dinində nənə anaya bərabər tutulur. Buna görə də nənənin qayğısına qalmaq və ona baxmaq dinin ona verdiyi haqlardan hesab edilir. İslam dini nənəyə oğlan və qız nəvələrindən (vəfat etdiklərində) miras almaq hüququ verir. Eyni zamanda nənəni, xüsusilə qocalanda ziyarət etmək və onun halı ilə maraqlanmaq, səhhəti pisləşdikdə ona daha çox qayğı göstərmək vacibdir.

Bundan başqa İslam dini bizi aramızda qohumluq əlaqələri olmayan qadınlara qarşı belə diqqətli olmağa çağırır. Onların dində müsəlman bacımız olmaları üzərimizdə haqlarının olduğunu göstərir. Əgər bir qadın sənin qonşundursa, o zaman onun haqqı ikiqat artır, çünki o sənin həm müsəlman bacın, həm də qonşundur.

Beləliklə, biz İslamın qadınlara göstərdiyi qayğının yalnız kiçik bir hissəsinə toxunduq. Qeyd etdiklərimiz isə dənizin bir damlası kimidir.

Məgər bundan sonra kimsə deyə bilərmi ki, İslam dini qadını haqsız-hüquqsuz buraxmışdır? Yaxud onun haqlarını pozmuşdur? Məgər bu hüquqlar ona və onun ehtiyaclarına daha yaxşı bələd olan, onun üçün nəyin xeyirli və nəyin zərərli olduğunu bilən Hikmət və Elm sahibi tərəfindən verilməmişdirmi? Məgər müsəlman qadına yaraşarmı ki, Uca Allahın onun üçün bəyəndiyi və hökm etdiyi əmrləri tərk edib, öz xoşbəxtliyini və təhlükəsizliyini təmin etmək üçün ağlın naqis və məhdud imkanlarına əsaslanaraq başqa qanunlar axtarsın?

## Qadının ölümdən sonrakı haqları

İslam dini qadının halı ilə yalnız sağlığında deyil, hətta vəfatından sonra da maraqlanır. Buraya vəfat etmiş qadına aid borcların (əgər varsa) yaxınları tərəfindən tez bir zamanda ödənməsi, onun adından sədəqələrin verilməsi və onun üçün dua edilməsi daxildir.

Peyğəmbərimiz ﷺ buyurmuşdur: «***İnsan öldükdə yaxşı işlərin əməl dəftərinə yazılması dayanır. Üç əməl istisnadır….*** » Bu üç əməldən biri də **«Onun üçün dua edən saleh övladdır»**[1].

Əgər o, ümrə və həcc ziyarətlərini etməmişdirsə, o zaman onun əvəzinə bu əməllərin oğlu və ya qızı tərəfindən edilməsi tövsiyə olunur. Bir dəfə Peyğəmbərin ﷺ yanına Cüheynə qəbiləsindən bir qadın gələrək soruşur: «*Mənim anam həccə niyyət etmiş, lakin bunu etmədən vəfat etmişdir. Mən onun yerinə həcc*

---

[1] Müslim, 1631

*edə bilərəmmi?»* Peyğəmbər ﷺ cavab verir ki: ***«Bəli, onun əvəzinə həcc et. Əgər ananın borcu olsaydı, onu ödəməli olmazdınmı? Buna görə də Allah qarşısındakı borclarınızı ödəyin, çünki O, buna daha çox layiqdir»***[1].

Ananın vəfatından sonra ona gözəl münasibətə onun qohumları və rəfiqələri ilə əlaqənin saxlanması da daxildir. Bu bir daha sübut edir ki, İslam dini qadına hərtərəfli qayğı göstərir. Bundan əlavə, dinimiz həm ata, həm də ana tərəfdən olan xalalara və bibilərə xüsusi diqqət yetirir. Peyğəmbərimiz ﷺ buyurmuşdur: ***«Xala ana kimidir»***[2].

İbn Ömər (Allah ondan razı olsun) rəvayət edir ki, bir dəfə Peyğəmbərin ﷺ yanına bir kişi gəlib dedi:

— *Ey Allahın elçisi, mən böyük günah etmişəm! Necə tövbə edim?*

---

[1] əl-Buxari, 1745

[2] əl-Buxari, 1781

Peyğəmbər ﷺ soruşdu:

— ***Anan sağdırmı?***

— *Xeyr.*

— ***Bəs xalan varmı?***

— *Bəli, var.*

— ***Onunla gözəl rəftar et və qohumluq əlaqələrini saxla.***[1]

Eyni şəkildə, atanın bacılarına (bibilərə) onun ölümündən sonra göstərilən qayğı da ata ilə gözəl münasibətin bir ifadəsidir. İslama görə əmi və bibi yaxın qohumlar hesab olunur və onlarla qohumluq əlaqələrini qorumaq vacibdir.

---

[1] Əhməd, 1904

## Qadınların miras məsələləri ilə bağlı şübhələrə cavab

İslam düşmənlərinin qadınları aldatmaq üçün məhz onların şəriətdəki hüquqlarından istifadə etməyə çalışdıqları şübhəsizdir. Uca Allah onlara tövhidin və düzgün əqidənin əsaslarını təhrif etməyə imkan vermədiyi üçün onlar müsəlman qadını şəriətin və dini hökmlərin tələbləri ilə qarşı-qarşıya gətirməyə çalışaraq başqa bir hiyləyə əl atdılar. Beləliklə, onlar bəzi müsəlman qadınların İslam dininin və onun hökmlərinin insan həyatı boyunca faydaları ilə bağlı şübhəyə düşmələrinə nail oldular.

Onlar dedilər: *"Həqiqətən, İslam qadınları qısnamaq üçün gəlmişdir. İslam miras məsələlərində qadına qarşı ədalətsizdir, çünki ona kişiyə verilənin yarısı verilir."* Onlar Uca Allahın aşağıdakı ayəsini dəlil gətirir və bunun əsasında şübhə yayırlar:

﴿لِلذَّكَرِ مِثۡلُ حَظِّ ٱلۡأُنثَيَيۡنِ﴾

«**Kişiyə iki qadının payı qədər pay çatır»** (Quran, 4:11),

Lakin ədalət naminə bu məsələni araşdırmağa belə cəhd etmirlər. Onlar qadının İslamdakı vəziyyətini İslamdan əvvəlki cahiliyyə dövründə olan halı ilə müqayisə etmirlər. Qadının İslamdakı statusunu digər dinlərdəki statusu ilə tutuşdurmurlar. Üstəlik, qadının İslam dinindəki haqq və hüquqlarını qeyri-müsəlman ölkələrindəki qadınların vəziyyəti ilə də müqayisə etmirlər.

Əgər bu ittihamlar ədalətli və qərəzsiz şəkildə araşdırılsa, onların əsassızlığı üzə çıxacaq. Bundan əlavə, qeyd etmək lazımdır ki, mirasın bölüşdürülməsi məsələsində qadının haqqını kişinin haqqı ilə eyniləşdirməyə çalışanda, əslində ona qarşı ədalətsizlik etmiş olurlar. Ortaya sual çıxır - niyə?

İslam hüququna görə, qadının miras payı ilə bağlı mərhumla qohumluq dərəcəsi və digər varislərin mövcudluğuna əsasən 30 müxtəlif hökm mövcuddur.

Bu 30 haldan bəzilərində qadın kişiylə eyni miqdarda miras alır, bəzilərində isə daha çox pay əldə edir. Hətta elə hallar var ki, qadına miras qalır, kişiyə isə qalmır. Şəriətin bütün bu fərqli yanaşmaları ədalət prinsiplərindən, qadına və onun haqlarına hörmətdən irəli gəlir. Lakin İslamın düşmənləri qəsdən yalnız bir halı — kişinin ikiqat miras almasını önə çəkir və bunun üzərində şübhələrini quraraq İslamı tanımayanlara onu təhrif olunmuş şəkildə təqdim edirlər. Qardaş və bacı arasında miras bölgüsünə dair ayədə (**«kişiyə iki qadının payı qədər pay çatır»**) onlar yalnız ayənin zahirinə diqqət yetirir, ayənin içindəki hikməti və mənanı görməzdən gəlirlər. Onlar heç bundan danışmırlar ki, kişi ikiqat miras alsa da, qadın öz payının tam sahibidir və onu ailəsinə, uşaqlarına, ərinə və ya evin ehtiyaclarına xərcləməyə borclu deyil. Əksinə, kişi aldığı mirası həyat yoldaşına, uşaqlarına, anasına və ehtiyac olarsa, bacısına da xərcləməlidir. Beləliklə, onlar İslamın kişini öz malından daha geniş xərcləməyə məcbur

etdiyini, qadının üzərinə isə belə bir öhdəlik qoymadığını gizlədirlər. Eyni zamanda, onlar kişi və qadın arasında miras fərqinin yalnız 30 hökmdən birində mövcud olduğunu da dilə gətirmirlər. Həmçinin, onlar şəriətə görə qadının kişinin işlədiyi kimi işləyə və onun qədər qazana bildiyinə, lakin qazandığını ailəsinə xərcləmək məcburiyyətində olmadığına dair mühüm bir məsələni də qəsdən gözardı edirlər.

## Qadınların şahidliyi ilə bağlı şübhələrə cavab

İslamın düşmənləri tərəfindən irəli sürülən başqa bir şübhə isə İslama görə iki qadının şahidliyinin bir kişinin şahidliyinə bərabər tutulması və qadının ağıl və düşüncə baxımından guya naqis olması iddiasıdır. Lakin, doğrudanmı bütün hallarda iki qadının şahidliyi bir kişinin şahidliyinə bərabər tutulur? Məsələn, qarşılıqlı lənətləşmə (liʿān) halında — yəni kişi həyat yoldaşını zinada ittiham etdikdə — qadının şahidliyi kişinin şahidliyi ilə bərabər tutulur. Əgər qadın desə ki, kişi ona böhtan atır, bu zaman özünü qorumuş olur. Bu halda, iki qadın şahidliyinin bir kişinin şahidliyinə bərabər olması şərti tətbiq edilmir.

İki qadının şahidliyinin bir kişinin şahidliyinə bərabər tutulması məsələsi bəzi hallarda İslamın qadına etinasızlığından deyil, əksinə, ona göstərdiyi qayğıya görədir. Axı kim deyib ki, qadının ağlının naqis olması onun düşüncə qabiliyyətinin də naqis

olması deməkdir? İslam dini belə bir iddia irəli sürmür. Əksinə, Peyğəmbər ﷺ demişdir ki: ***«Mən ağlı və dini baxımından naqis olub da, sağlam düşüncəli bir kişinin ağlını sizin (yəni qadınlar) qədər ala biləni görmədim»*** [1]. Bu hədisdə qadının naqisliyi onun zəkası ilə deyil, sadəcə fizioloji təbiəti — aybaşı halı, emosional dəyişiklikləri və mənəvi durumu ilə bağlı olaraq qeyd edilib qadının çətin dövrləri nəzərə alınır və ona xüsusi qayğı göstərilir. Ağılın və dinin naqisliyi dedikdə məhz bu nəzərdə tutulur.[2]

Müsəlman qadın Uca Allahın hökmlərinə qarşı çıxmağa və Peyğəmbərin ﷺ sünnəsini tərk etməyə sövq edən çağırışlara qulaq asmamalıdır.

Əksinə qadın İslamın ona bəxş etdiyi yüksək dəyəri və Peyğəmbərin ﷺ cənnətə aparan dörd əməllə bağlı qadına verdiyi müjdəni düşünməli və

---

[1] əl-Buxari, 304

[2] Çünki, aybaşı vəziyyətində qadın nə namaz qılır, nə də oruc tutur. [Tərc. Qeyd]

bunun üçün çalışmalıdır: «***Əgər qadın beş vaxt namazını qılarsa, Ramazan orucunu tutarsa, ərinə itaət edərsə və yad kişilərin nəzərindən özünü qoruyarsa, Cənnətin istənilən qapısından daxil olacaq!***»[1] Məgər bu, İslam dininin qadına göstərdiyi böyük hörmətin açıq-aşkar bir dəlili deyilmi?!

Allah səni qorusun bacım, Allahın sənə əmr etdiklərindən başqa heç kəsin uydurduğu qanunlara məhəl qoyma. Heç kimin səni Allahın hökmlərindən və Peyğəmbərin ﷺ Sünnəsindən uzaqlaşdırmasına imkan vermə. Öz məhdud və dar düşüncəsinə əsaslanaraq səni xoşbəxt edə biləcəyini iddia edənlərin sözlərinə aldanma, çünki sən öz xoşbəxtliyini ancaq aləmlərin Rəbbi olan Uca Allahın hökmlərində tapa bilərsən, onların vəd etdiyi saxta mənəvi rahatlıq və əmin-amanlıqda deyil. Ağlını insanları dinindən uzaqlaşdıran batil ideologiyalara əsir etmə. Eyni zamanda, İslamla mübarizə aparan və

---

[1] İbn Hibban, 4163

onu cərəyanlara, təriqətlərə parçalamağa çalışanların səni öz məqsədləri üçün bir vasitə kimi istifadə etməsinə də imkan vermə.

Allaha və Peyğəmbərin ﷺ Sünnəsinə tabe ol. İslamın qadınla bağlı hökmlərində ona verdiyi fəzilət barədə düşün. Unutma ki, İslam dini qadının istər dini, əxlaqi, mənəvi, istərsə də maddi hüquqlarını həyatın bütün sahələrində qoruyur. İslam dini qadını o qədər ucaltmış və şərəfləndirmişdir ki, buna başqa inanc sistemi ilə nail olmaq mümkün olmamışdır.

Bunun üçün hər bir qadın onun ləyaqətini qoruyan, cəmiyyətdəki mövqeyindən asılı olmayaraq həyatının bütün mərhələlərində onu ucaldan Rəbbinə şükür və həmd etməlidir.

Uca Allahdan istəyirəm ki, bizi Onun dinini öyrənənlərdən və bütün peyğəmbərlərin imamı olan Muhamməddin ﷺ Sünnəsinə tabe olanlardan etsin. Beləliklə, aləmlərin Rəbbi olan Uca Allaha həmd edərək mühazirəmizi yekunlaşdırırıq. Allahın salamı

və bərəkəti peyğəmbərimiz Muhamməddin, onun ailəsinin və səhabələrinin üzərinə olsun.